“Şəffaflıq Azərbaycan” Korrupsiyaya Qarşı Mübarizə İctimai Birliyi

TRANSPARENCY INTERNATIONAL AZERBAIJAN

AZ 1001 , Bakı şəhəri,
M. Əfəndiyev küç. 7/24
Tel: (99 412) 49257 26
**E-mail**: alimammad@transparency.az
www.transparency.az

# *Press-Reliz*

*Azərbaycan, Bakı* *23.01.2020*

## Korrupsiya Qavrama İndeksi (KQİ) 2019

“Beynəlxalq Şəffaflıq” Təşkilatının milli bölməsi olan “Şəffaflıq Azərbaycan” təşkilatı 2019-cu il üçün Korrupsiya Qavrama İndeksini (2019 KQİ) təqdim edir.

“Beynəlxalq Şəffaflıq” Təşkilatının **(**Transparency International) tərtib etdiyi Korrupsiya Qavrama İndeksi (KQİ), dövlət sektorunda mövcud olan korrupsiya haqqında təsəvvürlərin dərəcəsindən asılı olaraq, dövlətlərin sıralamasını müəyyən edir. İndeks hazırlanarkən, bir sıra nüfuzlu beynəlxalq institutların korrupsiya ilə bağlı apardığı sorğulara, qiymətləndirmələrə istinad olunur. KQİ dövlət sektorunda korrupsiyanın qavrayışının qiymətləndirməsidir.

Reytinq 0-100 ballıq qiymətləndirmə şkalası əsasında hazırlanıb, 100 bal olduqca təmiz, 0 bal isə olduqca yüksək korrupsiyalaşma səviyyəsini göstərir.

2019-cu il üzrə Azərbaycan KQİ-də 30 balla 180 ölkə arasında 126-cı sırada yer alıb. 2018-ci ildə Azərbaycan 25 balla 180 ölkə arasında 152-ci yerdə qərarlaşmışdı.

**Son 5 ildə Azərbaycanın göstəriciləri aşağıdakı kimi olmuşdur:**

| İllər | KQİ balı | Qlobal sıralamada yeri | KQİ-də ölkələrin sayı |
|---|---|---|---|
| **2019** | **30** | 126 | 180 |
| **2018** | **25** | 152 | 180 |
| **2017** | **31** | 122 | 180 |
| **2016** | **30** | 123 | 176 |
| **2015** | **29** | 119 | 168 |

**Qlobal sıralama cədvəli ilə buradan tanış ola bilərsiniz- CPİ-2019.**

KQİ-nin hazırlanmasında ümumilikdə, 13 fərqli hesabatdan istifadə edilmişdir. Bu hesabatlar antikorrupsiya siyasətinin səmərəliliyinə təsir göstərən bir sıra siyasi, iqtisadi və sosial xarakterli meyarlar üzrə ölkələrin mövqeyini qiymətləndirir. Azərbaycana dair məlumat isə 7 fərqli mənbə əsasında hazırlanıb. Mənbələrin tam siyahısı ilə «Suallar və Cavablar» sənədində tanış ola bilərsiniz.

“Şəffaflıq Azərbaycan” təşkilatı hökuməti demokratik idarəetmə və qanunun aliliyi sahələrində islahatların genişləndirilməsinə, dərinləşdirilməsinə, korrupsiya riski yüksək olan sahələrdə daha təsirli antikorrupsiya tədbirlərini həyata keçirilməsi, vətəndaş cəmiyyəti üçün əlverişli mühit yaradılması, şəffaflıq və hesabatlıl məsələlərində dövlət orqanlarını və dövlət şirkətlərini, ictimai xidmətləri yerinə yetirən şirkətlərin cavabdeh saxlanılması istiqamətində məsuliyyəti gücləndirəcək addımlar atmağa çağırır.